Təhsil Nazirliyi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) nümayəndələrinin iştirak etdiyi seminarda fiziki tərbiyə müəllimlərinə çempionatın keçirilməsi barədə rəsmi sənədlər, sifariş vərəqləri, buklet və posterlər paylanılıb, videoçarx nümayiş etdirilib. Eyni zamanda, seminarda müəllimlərə yarışların keçiriləcəyi yerlər, oyunların keçirilməsi və idarəolunması qaydaları barədə ətraflı məlumat verilib.

Qeyd edək ki, Təhsil Nazirliyi və AFFA-nın təşkilatçılığı ilə fevralın 20-dən martın 18-dək keçiriləcək yarışa Bakıdakı ümumtəhsil məktəblərinin VIII sinfində oxuyan oğlanlardan ibarət komandalar qatılacaq.

Çempionatın keçirilməsində məqsəd "Azərbaycan Respublikasında 2005-2015-ci illərdə futbolun inkişafına dair Dövlət Proqramı"ndan irəli gələn vəzifələri yerinə yetirmək, 2015-ci ildə Bakı şəhərində keçiriləcək birinci Avropa Oyunlarının mahiyyətini məktəblilər arasında təbliğ etmək, məktəbli futbolçuların idman ustalıqlarını artırmaq və mini futbolun genişlənməsinə dəstək verməkdən ibarətdir.

Bakıdakı ümumtəhsil məktəbləri komandalarının iştirak etdiyi yarış 3 mərhələ üzrə keçiriləcək. I mərhələ rayondaxili yarışları əhatə edəcək. II mərhələdə yarışlar yarımqruplar üzrə təşkil olunacaq. Sonuncu mərhələdə isə yarımqrupların qalibləri qarşılaşacaq.

Final yarışında I, II və III yeri tutan komandalar Təhsil Nazirliyinin diplom, kubok və qiymətli hədiyyələri ilə təltif olunacaq.